


# *Tut ipəkqurdunun aqrozootexniki qaydalara uyğun bəslənməsi və kümxanaların təlimatlara uyğun hazırlanması*

**Təlimçi - Əkrəm Fətəliyev**

# 1. Kümxanaların hazırlanması

- **Tut ipəkqurdunun yemləndirilməsi mövsümü iqlim şəraitindən asılı olaraq aprel ayının sonları, may ayının əvvəllərinə təsadüf edir. Mövsümə hazırlıq işləri yemləmə aparılacaq kümxananın hazırlanması ilə başlayır.**
- **Belə ki, 1 qutu (19 qr) ipəkqurdunun yemləndirilməsi üçün 60-70 m² yemləmə sahəsi hazırlanmalıdır.**
- **Yemləmə dövründə xüsusən xırda yaşlarda qarışqa yaxud digər həşəratların ipəkqurdlarına zərər verməməsi üçün tərəcələr mühafizə olunmalıdır. Bu məqsədlə tərəcələrin yerlə təmasda ola hissələrinə müəyyən qablarda su qoyulmalı, ətrafına əhəng tozu tökülməli yaxud sürtgü yağı ilə yağlanmalıdır.**





# 2. Dezinfeksiyanın aparılması






- Kümxananın daxilində əvvəlki illərdən qala biləcək xəstəlik qalıqlarının məhv edilməsi üçün kümxananın divarları əhənglə ağardılmalı və bundan sonra dezinfeksiya işinə başlanmalıdır.
- Dezinfeksiya işləri mart ayının sonu yaxud aprel ayının əvvəllərində aparılmalıdır ki, dezinfeksiyadan sonra kümxana xəstəlik qalıqlarının məhv olması üçün 5-6 gün bağlı qalmalı, sonra isə yemləmə başlayanadək qapı və pəncərələr açıq vəziyyətdə havalandırılmalıdır ki, orada olan dərman iyi tamamilə çıxmış olsun.
- Dezinfeksiya başlamazdan əvvəl kümxananın hər tərəfli möhkəm bağlanmalı, hava işləyəcək yerlər qalmamalıdır. Dezinfeksiyadan qabaq ipəkqurdunun yemləndirilməsi zamanı istifadə olunacaq bütün ləvazimatlar (bıçaq, qayçı, dəhrə, süpürgə, termometr və s.) kümxanaya qoyulmalıdır. Kümxana dezinfeksiyaya tam hazır olduqdan sonra 4%-li formalin məhlulu hazırlanır və 10 m²-ə 1 l işçi məhlul hesabı ilə dezinfeksiya aparılır. Dezinfeksiyanın yaxşı nəticə verməsi və məhlulun buxarlanaraq hər yerə təmas etməsi üçün kümxanada qızdırıcı sobanın qızdırılması məsləhətdir.



# 3. Kiçik yaşlarda tut ipəkqurdunun yeməndirilməsi

- **Tut ipəkqurdu  yemləmə  mərhələsində 5 yaş, 4 yuxu keçirir. I yaşda qurdlar xırda doğranmış yarpaqlarla yemləndirilir. Yarpağın doğranmasında məqsəd odur ki, ipəkqurdu yarpağı kənarlarından yeyir və doğranmış yarpağın kənarını qurdlar asanlıqla tapa bilir. Yemləmə hər 2 saatdan bir aparılmalı, hər yemləmədə qurdlar ehtiyatla seyrəldilməli, doğranmış yarpağın tez quruması üçün temperatur və rütubətə dəqiq əməl olunmalıdır.**







- **İpəkqurdunun yumurtadan çıxdığı gündən I yaş dövrü başlayır. I yaş 3-4 gün dəvam edir. İlk 3 yaşda yemləmə otağında temperatur 25-26°C, nisbi rütubət 75-80 % olmalıdır. İpəkqurdunun ilk 3 yaşı kiçik yaş dövrü hesab edilir.**
- **I yaşda ipəkqurdları zoğun ucundan sonrakı 1-ci yarpaqlarla yemləndirilir. I yuxu 1-1.5 gün davam edir.**
- **II yaşda qurdlar hər gün seyrəldilməlidir. Əks halda yemləmə sahəsində sıxlıq əmələ gəlir, alt hissədə qalmış qurdlar yem tapmaqda çətinlik çəkir və beləliklə yaş fərqinin əmələ gəlməsi halları baş verir.**
- **İlk 3 yaşda rütubətin nizamlanması çox vacibdir. Ona görə rütubət aşağı olduqda yemləmə otağına su səpilməli, tərəcələrdən yaş parça asılmaslıdır. Rütubətin artırılması çətin olarsa xırda yaşlarda ipəkqurdlarına yarpaq verildikdən sonra üzərinə polietilen açılması məsləhətdir.**
- **Əks halda rütubət çox olarsa künədə kiflənmə yarana bilər. Rütubətin aşağı salınması üçün kümxananın qapı-pəncərəsini açaraq havalandırma aparmaq lazımdır.**





# 4. İri yaşlarda tut ipəkqurdunun yemləndirilməsi





- **IV-V yaşlar ipəkqurdunun iri yaş dövrü hesab edilir. IV yaşda ipəkqurdları cavan zoğlarla yemləndirilir. Bu yaşda kümxanada temperatur 24-25°C, nisbi rütubət 65-75% olmalıdır. Bu yaşda qurdlar 4 saatdan bir yemləndirilməli və hər gün künə dəyişdirilməlidir. IV yaş 4-5 gün davam edir və bundan sonra qurdlar sonuncu 4-cü yuxu dövrünü keçirir. IV yuxu 1,5-2 gün davam edir və qurdlar qabıq dəyişdikdən sonra V yaş mərhələsinə başlayır.**
- **V yaş ipəkqurdlarının ən çox yem qəbul etdiyi dövrdür. Ümumi yem sərfinin 70-75 %-i V yaşa təsadüf edir. V yaşda qurdlar bütov zoğlarla yemləndirilir. Həmin yaşda temperatur 23-24°C, nisbi 60-75% olmalıdır. Bu yaş 7-8 gün davam edir və qurdlar yemdən tam doyaraq baramasarıma mərhələsinə keçir.**

# 5. İpəkqurdunun saxlanması

- **Baramasarımaya çatmış qurdlar nisbətən böyümüş və şəffaf sarımtıl rəng almış olur. Bu zaman ipəkqurdlarına barama sarımaq üçün şax materialı tədarük olunur və qurdların üzərinə ehtiyatla qoyulur ki, zədələnmə olmasın. Baramasarımaya bir neçə gün qalmış şax materialı (sarıçiçək, xırda palıd zoğları, vələmir və s.) tədarük edilərək kölgə şəraitində nisbətən qurudulmalıdır. Yaş şax materialında sarınmış barama künənin rütubətli olması nəticəsində yumşaq və keyfiyyətsiz olur. Çox qurumuş şax materialı isə qurdların üzərinə qoyulduqda qurdların zədələnməsinə və tələf olmasına səbəb olur. Baramasarıma dövründə kümxananın havalandırılması əsas şərtdir.**





# 6. Baramanın yığılması

- Baramasarıma dövrü 3-4 gün davam edir və 7-8 gün keçdikdən sonra barama tam yetişdikdə yəni qurdların pup halına keçdiyi zaman məhsul yığılaraq təhvil verilir. Barama təhvil verilərkən içərisində olan çıxdaş və qaraçıxar baramalar tam seçilərək ayrıca təhvil verilməlidir.





# Süni şax





# Yaş barama





# 7. Barama tədarükündən sonra kümxananın təmizlənməsi

- **Barama tədarükündən dərhal sonra kümxanada olan künə çıxarılaraq təmizlənməli və künə yandırılmalıdır. Əgər kümxanada xəstəlik müşahidə olunmuşdursa kümxana qalıqlarından (ipəkqurdu ifrazatı və ya iri zoğlar) təsərrüfat məqsədilə istifadə etmək olmaz. Tam təmizlənmiş kümxana xəstəlik qalıqlarının məhv edilməsi üçün formalin məhlulu ilə dezinfeksiya olmalıdır.**

# Bəzi rayonlarda kümxana yerlərində vəziyyət

Şəki rayonu,
Cumakənd

Tarix- 13 yanvar 2020



Qəbələ rayonu, Kiçikəmirli kəndi

Tarix- 14 yanvar 2020



Ağdaş rayonu, Yuxarı Ləki kəndi

Tarix- 25 yanvar 2020



**Zərdab rayonu Yarıməmmədbağı kənd sakini Turab Kərimov 2020-ci mövsüm ilində yüksək nəticə göstərmişdir. (2 qutudan 110 kq)**

**Hal-hazırda növbəti mövsüm ili üçün 4 metr eni və 48 metr uzunluğunda yeni kümxana hazırlayır.**





# Təşəkkür edirik!

## QAX DAMAZLIQ İPƏKÇİLİK STANSİYASI